ISSN:2630-6212
SOCIAL SCIENCE DEVELOPMENT JOURNAL
SSDjournal
Open Access Refereed E-Journal & Refereed & Indexed
http://www.ssdjournal.org / journalssd@gmail.com
Article Arrival Date: 04.09.2022 Published Date: 15.09.2022
Doi Number : http://dx.doi.org/10.31567/ssd.743
Vol 7 / Issue 33 / pp: 34-42

# AYAZ GAMBARLİ' NİN PİYANO İÇİN "OBRAZLAR" ESERİ

## "IMAGES" SERIES FOR PIANO BY COMPOSER AYAZ GAMBARLI

**Minakhanim Babayeva**
Bakü Muzik Akademisinin "Müzik tarihi" bölümünün doçenti
babayevamina1984@gmail.com
ORCID: 0000-0002-9747-7395

**ÖZET**

Sunulan makalede, Uluslararası Yarışmalar ödüllü, besteci A. Gambarli'nin sanat ve müzikal yolu hakkında kapsamlı bilgi verilmiştir. Burada A. Gambarli'nin farklı yıllarda yazdığı piyano müziği örneklerine, özellikle de "İmages" eserine göz atacağız. Modern Azerbaycan bestecisi A. Gambarli, yaratıcı kalemini çeşitli müzik türlerinde ve formlarında denemiştir. Piyano müziği, bestecinin müzikal yolunda özel bir yere sahiptir.

Onun birçok eseri Uluslararası Müzik Festivallerinde ve dünyanın birçok ülkesinde başarı ile seslendirilmiştir. Farklı yıllarda bestelediği "Altı eskiz" ( piyano, 2003), "Elementlerin direnci" (piyanotrio, 2013-2014), "Suprematistik figürler" (piyanotrio, 2014), "Rezonans" (solo piyano, 2015), "Eylül bulutları" (solo piyano, 2015), "Ilgım" (solo piyano, 2018), "Hüzün" (solo piyano, 2019), "Riga yağmurda" (solo piyano, 2020) gibi besteleri bestecinin müzikal yolunu zenginleştiriyor. Makalede genç bestecinin 2015-2018 yıllarında yazdığı "Images" eseri analiz edilmiştir. Burada eserin modern yazım tekniği ile ilgili bazı konularına değinilmiştir. A. Gambarli genç yaşına rağmen müzik camiasında sürekli kendi üzerine çalışan ve ciddi hedefler koyan bir besteci olarak tanınmaktadır.

A. Gambarli seçkin besteci A. Malikov'un sınıfının bir öğrencisi olduğunu ve büyük hocasından besteciliğin birçok sırrını öğrendiğini belirtmeliyiz. Genç bestecinin eserlerinde gözlemlenen modernitenin kendine has özellikleri vardır. Ele aldığı konuda iyi düşünülmüş, ölçülü bir yazı stili sergilemiştir.

Sunulan makalede incelenen "Images" eserinde, besteci esas olarak register olasılıklarının çeşitliliğini mümkün olduğunca kullanır. Dinamik işaretler, değişen ölçü-ritim, duraklamalar, (suslar-esler), farklı tınılar, modern yazı teknikleri, klasterler, piyanonun geniş olanakları vb. eserde dikkat çeken özelliklerdir. Bestecinin eserin başlığına verdiği programatik fikir, dinleyicide büyük ilgi uyandırır. Makaledeki temel amacımız, 21. yüzyıl bestecisinin yeni yazı yöntemlerini uygulamasına ilişkin bazı noktaları ortaya koymaktır.

**Anahtar kelimeler:** Ayaz Gambarli, müzik, modern yazı, register, tını, genç besteci, Uluslararası Yarışmalar, festival, yetenek, piyano müziği.

**ABSTRACT**

The given article provides extensive information about the creativity of the composer A. Gambarli who is the laureate of International Competitions. Here we take a look at the examples of piano music which composer wrote in different years, especially the "Images" series. He tried his talent

in several genres and forms of music. Piano music occupies a special place in the composer's career.
A number of his works have been successfully performed at International Music Festivals and in many countries around the world. "Six Sketches" (piano, 2003), "Resistance of the Elements" (piano trio, 2013-2014), Suprematistic Figures" (piano trio, 2014), "Resonance" (solo piano, 2015), "September Clouds" (solo) piano, 2015), "Illusion" (solo piano, 2018), "Sadness" (solo piano, 2019), "Riga in the rain" (solo piano, 2020) enriches the composer's piano creativity. The article analyzes the "Images" series written by A.Gambarli in 2015-2018 and explains the modern writing techniques that are touched upon here. A. Gambarli is known in the music community as a composer who is constantly working on himself and sets serious goals.
We should note that A. Gambarli was a student of A. Malikov's class and learned many secrets of composition from his great teacher. The modernity observed in his works and he demonstrates a well-thought-out, measured writing style on the subject.
In the "Images" series analyzed in the presented article, the composer mainly uses the variety of register capabilities as much as possible. Dynamic signs, changing meter-rhythm, breaks (pauses), different timbres, modern writing techniques, clusters, wide possibilities of the piano, etc. are the features that attract attention in the series. The programmatic idea given by the composer to the title of the work arouses great interest in the listener. Our main goal in the article is to reveal some points related to the application of new writing methods by the 21st century composer.
**Keywords**: Ayaz Gambarli, music, modern writing, registration, Timbre, young composers, international competition, festival, talent, piano music.

## Giriş

Müasir dövrün inkişaf mərhələsində musiqi təfəkkürü irəlilədikcə Azərbaycan bəstəkarlarının da yaradıcı təxəyyülü genişlənmiş və meydana gələn yeni, müxtəlif musiqi cərəyanları ilə əhatə olunmuşdur. Nəticədə müasir ifaçılıq və yazı texnikası bəstəkarlarımızın yaradıcılığında milli köklərlə birləşərək özünəməxsusluğu və orijinallığı ilə seçilən musiqi əsərlərin yaranmasına səbəb olur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında fortepiano musiqisi ciddi axtarışların, yeni yazı tərzinin həlli yolunda Qərb Avropa musiqisindən bir çox yenilikləri mənimsəmiş və təbii olaraqmusiqi təfəkkürünə prinsipial əhəmiyyətli novatorluğu daxil etmiş olurlar.

XX-XXI əsr Azərbaycan fortepiano yaradıcılığında öz əksini tapan yer tutan müxtəlif cərəyan, musiqi üslubu və istiqamətlərdən bəhs edərkən ilk növbədə müasir fortepiano yazı texnikası diqqəti cəlb edir. Müasir musiqidə bir-birini əvəz edən yeni üslub və cərəyanlar eləcə də yeni tapıntılara, axtarışlara sanki yol açır. Yeni bəstəkar texnologiyaları fortepiano ifaçılıq sənətini zənginləşdirir və XXI əsrə xas olan qloballaşma prosesinə baxmayaraq, Azərbaycan öz milli təfəkkür tərzini müasir dövrümüzdə qoruyub saxlamış olur.

Bildiyimiz kimi, Azərbaycan bəstəkarlıq məktəbi mütəmadi şəkildə dünya musiqisinə zəngin yaradıcılıq irsinə sahib nümayəndələr bəxş etmişdir. Burada bir nümunəyə nəzər salaq və kiçik bir xatırlama kimi qeyd etsək ki, Sovet dönəmində əgər S.Prokofyev və D.Şostakoviç kimi nəhəng bəstəkarlarla birlikdə Q.Qarayev də çıxış edirdisə, XX əsrin ikinci yarısındanbaşlayaraq bu mənzərə xeyli genişlənir.A.Məlikov, X.Mirzəzadə, A.Əlizadə, V.Adıgözəlov, F.Qarayev, F.Əlizadə, RA.Dadaşov, C.Quliyev kimi bəstəkarlar intellektual və böyük miqyasda öz zəngin yaradıcılıq axtarışlarını dinləyicilərə çatdıra bilirdilər. Musiqi auditoriyasının sevgi və məhəbbətini, rəğbətini qazanan əvəzolunmaz görkəmli sənətkarlar özlərindən əvvəlki bəstəkarların ənənələrini layiqli şəkildə davam etdirmişdirlər. Qeyd olunan bəstəkarlarımızın pedaqoji fəaliyyəti də hamıya yaxşı məlumdur və məhz bu fəaliyyətin nəticəsində neçə-neçə bəstəkar nəsli yetişmiş, müasir Azərbaycan musiqisində sələflərinin ənənələrini layiqincə davam etdirmiş, eyni zamanda öz fərdi xüsusiyyətlərini də üzə çıxarmağa müvəffəq olmuşdurlar.

Social Science Development Journal 2022 September Volume: 7 Issue: 33 pp: 34-42
Doi Number : http://dx.doi.org/10.31567/ssd.743

Azərbaycan bəstəkarlıq məktəbi yarandığı ilk gündən öz fəaliyyətini davam etdirir və musiqi sənətinin inkişaf olunmasında, zənginləşməsində yorulmadan çalışan bir sıra gənc və istedadlı bəstəkarlar var və onlar bu mədəniyyətin daha da tanınması üçün əllərindən gələni əsirgəmirlər.
Öz yaradıcılığı ilə Azərbaycan musiqisini bir sıra ölkələrdə yorulmadan təbliğ edən, Avropa musiqi mədəniyyətinə tanıdan, böyük bəstəkarımız A.Məlikovun yetirməsi, milli bəstəkarlıq məktəbimizin gənc və istedadlı nümayəndələrindən biri olan Ayaz Qəmbərli(19.09.1984) beynəlxalq səviyyəli layihələrin, festivalların daimi iştirakçısı və qalibidir.O, Azərbaycan bəstəkarlıq məktəbinin əldə etdiyi parlaq nailiyyətlərini öz yaradıcılığında ustalıqla nümayiş etdirir, yazıb-yaratdığı əsərlərnəinki Azərbaycanda, eyni zamanda onun hüdudlarından kənarda da səslənərək geniş auditoriya tərəfindən maraqla qarşılanır. Bəstəkarın bir sıra əsərləri beynəlxalq müsabiqələrdə ifa olunaraq ona qalibiyyət qazandırmış, yeni-yeni uğurlara yol açmışdır.

## Metod və materiallar

O, musiqi sahəsindəki uğurlarına və Azərbaycan Respublikasının xaricdə təmsil olunmasına görə “Gənclər mükafatı”na, səhnə fəaliyyəti ilə bağlı Prezident Mükafatına layiq görülmüşdür. Bəstəkarın yaradıcılığı musiqi ictimaiyyəti tərəfindən daim maraqla izlənilir və onun bir sıra əsərləri istedadlı dirijorlar tərəfindən müxtəlif orkestrlərin ifasında səsləndirilir.
Özünəməxsus musiqi dili, sənətə baxış mövqeyi olan A.Qəmbərlinin yaradıcılığı xüsusi diqqətəlayiqdir. Ümumiyyətlə, hərtərəfli musiqi biliyinə, bədii zövqə malik olan bəstəkar yaradıcılığında simfonik, kamera-instrumental, vokal və fortepiano musiqisinə geniş yer ayırmışdır. Eyni zamanda o, kinofilmlərə və teatr tamaşalarına nadir hallarda olsa da musiqi bəstələyir, bu sahədə böyük uğurlar əldə etmiş olur. Bəstəkar öz yaradıcılığında zəngin köklərə dayaqlanaraq müxtəlif janrlarda olduqca maraqlı, rəngarəng nümunələr yaratmaqdadır.
Qeyd etməliyik ki, A.Qəmbərli görkəmli bəstəkar A.Məlikov sinfinin yetirməsidir və böyük müəllimindən bəstəkarlığın bir çox sirlərinə yiyələnmişdir. Gənc bəstəkar klassik musiqinin ənənələrini yaradıcılığında tətbiq edir, eyni zamanda öz əsərlərində o,yaradıcı mövqeyini əsas tutaraq yeni cizgiləri əldə etmiş olur. Belə ki, gənc bəstəkarın əsərlərində müşahidə olunan müasirlik özünəxas səciyyə daşıyır. O, müraciət etdiyi mövzuda çox düşünülmüş, min ölçüb-biçilmiş yazı tərzini nümayiş etdirir. Məsələn, bəstəkar hələ konservatoriyanı bitiridiyi zaman təqdim etdiyi Fortepiano və orkestr üçün Konsertdə artıq müəyyən ənənəviliyə yaradıcı mövqedən yanaşır və tətbiq etdiyi yeni yazı tərzini sərbəst şəkildə dinləyiciyə çatdırmağa müvəffəq olmuşdur. Təsadüfi deyil ki, bu konsert nəinki bəstəkarın yalnız diplom işi kimi, eləcə də, Qəbələ Beynəlxalq musiqi festivalında dəfələrlə müxtəlif dirijor və ifaçıların repertuarında geniş yer tutmuşdur. Əsərin dirijorları sırasında R.Abdullayev, Y.Adıgözəlov, F.İbrahimov, Ə.Quliyevin adlarını qeyd etmək olar, fortepiano partiyasını isə Respublikanın Xalq Artisti, professor Yeganə Axundova, eləcə də Zakir Əsədov ifa etmişlər. Bu misalı qeyd edərək onu vurğulamaq istərdik ki, ənənəvi görünən üçhissəli silsilədə bəstəkar hər hissə də solistin kadensiyasını (cadenza) təqdim etmiş olur. Bununla burada solistin rolu xeyli artır və birmənalı olaraq əsərin əsas “qəhrəmanı” kimi pinoçu çıxış edir.
Yaradıcılığının ilkin mərhələsindəki axtarışlarının nəticəsində A.Qəmbərli “Zənnimcə mən Azərbaycan musiqisinin məhz indiki Abşeron dövrünü yazıram” ifadəsini söyləyərək gənc bəstəkar daim öz üzərində çalışan, zəhmət və əməyin nəticəsində uğura addımlayan və heç vaxt əldə olunanlarla kifayətlənməyən yaradıcı şəxsiyyət kimi qarşıya qoyduğu məqsədə doğru irəliləyir. Sözün əsl mənasında bəstəkarın öyrəndikləri, oxuduqları dünya görüşünün inkişafına böyük təsir göstərib.
Bəstəkarın müxtəlif illərdə yazdığı əsərlərdə onun daim yeniləndiyini hiss edirsən. A.Qəmbərli yaradıcılıq fəaliyyətində klassik forma və müəyyən bəstələmə texnikası ilə özünü çərçivəyə salmır və yaradıcılığına nəzər yetirdikdə o bir istiqamətdə əsər yazmaqdan yan keçir. Odur ki, yaradıcılığında hər yaranan əsər yeniliklərlə zəngindir.
Bəstəkar qısa zaman ərzində Azərbaycan musiqi ictimaiyyətinin diqqətini cəlb etməyə müvəffəq olmuşdur.O, yaratdığı musiqi əsərləri ilə Azərbaycan musiqi mədəniyyətinin layiqli nümayəndəsi

kimi özünü təsdiq etmişdir. Onun əsərləri dünyanın bir çox mötəbər salonlarında, beynəlxalq festivallarda və müxtəlif dövlət tədbirlərində səslənməkdədir.
Gənc bəstəkar musiqinin bir sıra janr və formalarında yaradıcı qələmini sınayır, maraqlı əsərlər yaradır. Onun tələbəlik illərindən bəri yazdığı fortepiano əsərləri sırasında "Altı eskiz" (piano,2003), "Elementlərin müqaviməti" (pianotrio,2013-2014), Suprematistik fiqurlar" (pianotrio, 2014), "Rezonans" (solo piano,2015), "Sentyabr buludları"(solo piano, 2015), "İlğım" (solo piano,2018), "Hüzn" (solo piano,2019), "Riqa yağışda" (solo piano,2020) kimi maraqlı nümunələrin adlarını sadalamaq olar. Eləcə də bəstəkarın simfonik janra olan marağı aşağıda qeyd etdiyimiz əsərlərdə öz təsdiqini tapır. Belə ki, o, simfonik orkestr üçün "Divertisment" (2005), "Exolalia" (2016), "Retrospektiv" (2015-2017) və s. əsərlərin müəllifidir.
Təbii ki, bəstəkarın yaradıcılığında onun fortepiano ifaçılığı da mühüm rol oynayır. Dediyimizi bəstəkarın bu sahədə yazdığı və ifa etdiyi əsərlərdə aydın şəkildə görmək olar ki, A.Qəmbərli bir ifaçı kimi hər zaman güclü və geniş əlləri, virtuoz texnikası və zərif ifadəli lirikası ilə seçilir.Nəzərə almaq lazımdır ki, onun fortepiano əsərlərini ifa etmək heç də asan deyil. Güclü texnika və fortepianoda gözəl ifa etmək qabiliyyəti A.Qəmbərlinin yaradıcı işinin üstün keyfiyyətləridir.

**Müzakirə**

Gənc olmasına baxmayaraq A.Qəmbərli inamla musiqi sənətində addımlayır, bacarığı və istedadı ilə seçilir və müraciət etdiyi hər bir sahədə yeniliklərə öz münasibətini bildirmiş olur. O, XX əsr Qərb musiqisinə xas olan üslub axtarışlarına, yeni bəstəkar texnikalarına biganə qala bilməmişdir.Onun musiqisi ciddi fikir və məzmununa, təqdim olunan mövzu və obrazların əhəmiyyətinə görə seçilir. Onu da qeyd etmək istərdik ki, gənc bəstəkar əsasən yaradıcılığında proqramlı musiqiyə müraciət edir.
Bəstəkarın son illərin məhsulu olan fortepiano üçün nəzərdə tutulan "Images" ("Obrazlar") silsiləsi diqqəti cəlb edir.Silsilə 2015-2018 – ci illər ərzində yazılıb və üç pyesdən ibarətdir: "September clouds", ("Sentyabr buludları"), "Resonance"("Rezonans"), "Mirage" ("İlğım"). Adları qeyd olunan pyeslər həm birlikdə, həm də ayrı-ayrı ifa olunur, hətta ifaçı istəyindən asılı olaraq ardıcıllıq dəyişdirilə bilər.
Silsilənin ilk nömrəsi "Sentyabr buludları" adlanır və bəstəkarın yeni yazı texnikası ilə bizi tanış edir. Onu da qeyd edək ki, bəstəkarın qardaşı da incəsənət sahəsində öz uğurları ilə diqqəti cəlb edir və adı çəkilən əsər Anar Qəmbərlinin eyniadlı rəsm əsərinə musiqili təsvir kimi meydana gəlmişdir. Əsəri ilk dəfə pianoçu Fidan Ağayeva-Edler ifa edib və bəstəkar bu əsəri məhz ona həsr edib. Əsəri təhlil edərkən ilk öncə onu qeyd etməliyik ki, bəstəkar təbiəti sanki "daxili təcəssüm etdirmə" prinsipinə əsaslanaraq təqdim etmiş olur. Əsərin proqramlı adı dediyimizi təsdiqləyə bilər. "Rəsmdə buludlar nə qədər aydın təsvir edilsə də, insan beyni reallıqda onlara yaxınlaşdıqca sanki dağılaraq itməsini unuda bilmir. Ayazın kompozisiyasında da bütün əsər boyu səslənən müəyyən intervallarla yuxarı qalxan fraza vasitəsilə həmin buludların dəqiq konturları təsvir edilir. Eyni zamanda "boğulmuş" səslərin əks-səda kimi bir neçə dəfə təkrarlanması buludların asta-asta əriyib yoxa çıxmasını xatırladır" (Sara Timurova. "Bəstəkar Ayaz Qəmbərli yaradıcılığının bədii identifikasiyası. "Konservatoriya" jurnalı 2021 №1 (50) ).
"Buludlar" aramla gedən, əriyən səmanın hərəkətsiz görüntüsüdür. Get-gedə onlar sanki geri çəkilərək ağ işıqla yumşaq bir şəkildə rənglənirlər.Silsilənin birinci pyesi bəstəkarın fortepiano yazısının yeni mərhələdə müasir üslubda yazılan nümunəsi olaraq çıxış edir. Əsər obraz aləminin həlli baxımından olduqca maraqlıdır. Bəstəkar əsəri intonasiya cəhətdən həllini konkret çərçivədə təqdim edir. Bu cəhətdən əsərin faktura və yaxud da texniki həlli dediyimizi təsdiqləyə bilər. Əsərin mövzu məsələsinin həlli lakonik intonasiya modellərindən ibarətdir ki, o da ümumi məntiqə əsaslanır. (Sara Timurova. "Bəstəkar Ayaz Qəmbərli yaradıcılığının bədii identifikasiyası. "Konservatoriya" jurnalı 2021 №1 (50) )

Social Science Development Journal 2022 September Volume: 7 Issue: 33 pp: 34-42
Doi Number : http://dx.doi.org/10.31567/ssd.743




Bəstəkar əsərdə əsasən registr imkanlarının rəngarəngliyindən mümkün qədər istifadə edir. Dinamik işarələr, dəyişən metr-ritm, fasilələr (pauzalar), müxtəlif tembrlər əsərin proqramlı ideyasını təsdiqləyir. Bəstəkarın əsərin bağlığına verdiyi proqamlı ideya da dinləyicidə böyük maraq doğurur. Niyə məhz senytabr? Niyə məhz payız? Sentyabr ayı...Buludlar... Havada, səmada yaxınlaşıb, uzaqlaşan, bəzən ağ, bəzən isə boz rəngə bürünən, mücərrəd olan buludlar...

"Buludlar"ın arxitektonik həlli, ilk növbədə bəstəkarın zəngin təxəyyülünün nəticəsi kimi təqdim olunub. Burada əsərin məntiqi həlli olduqca geniş və eyni zamanda lakonik texnikada, intonasiya fakturası əsasında öz həllini tapmışdır. Bu baxımdan əsərin ümumi quruluşu olduqca böyük maraq doğurur. Bəstəkar əsərin tonallıq problemini modal texnikası əsasında yüksək səviyyədə həll edir, eyni zamanda hər xanənin metr-ritm dəyişkənliyi – yəni poliritmik yazı üslubu diqqəti cəlb edən əsas məqamlardan biri kimi çıxış edir. Onu da qeyd etməliyik ki, bəstəkar əsərin ifası ilə bağlı bütün qeydləri əsər boyu aydın şəkildə göstərmiş olur.

Maraqlıdır ki, A.Qəmbərli təqdimat-inkişaf-yekun tipli formanı vahid çərçivə daxilində göstərmiş olur.

Əsər əvvəldən başlayaraq mövcud üslubun dəyişməz xarakteri, eyni zamanda onun inkişaf xəttini əmələ gətirir, bu da bəstəkarın faktura texnikası ilə işləmə bacarığını nümayiş etdirir.




Pyes boyu *pp* və *ppp* dinamik işarələrinə rast gəlinir. Daha çox diminuendo, bəzən crechendo işarələri istifadə olunur. "Buludlar" spesifik ifaçılıq effektləri ilə zəngindir. Bu effektlər fortepiano vasitəsi ilə üzə çıxarılaraq əsərin ideya məzmunundan irəli gələn məsələləri ön sıraya qoymuş olur. Fortepianoda bu spesifik effektlər və işarələrin üzə çıxarıldığı bir neçə məqama nəzər salaq. Bəstəkar alətin ənənəvi səslənmə imkanlarından kənara çıxaraq onun genişlənmiş texnikasından istifadə edir.

Social Science Development Journal 2022 September Volume: 7 Issue: 33 pp: 34-42
Doi Number : http://dx.doi.org/10.31567/ssd.743

Məlumdur ki, bu istiqamət ilk addım atan bəstəkarlar sırasında Charles Ives'ın adını qeyd edə bilərik. Daha sonra buna John Cage, George Crumb öz musiqisində daha geniş yer verir. Bəstəkar özü qeyd edir ki, "simdəki səs də mənim üçün elə adi piano səsidir. Onları heç cür dillərdə səslənən notlardan ayırmamışam..."

Silsilənin ikinci pyesi "Resonance" adı altında təqdim olunub. Pyes pianoçu Gülnar Qəmbərliyə həsr olunub. Əsərin çox incə, düşünülmüş yazı tərzi artıq ilk xanələrdən hiss olunur. Bəstəkar bu pyesdə də fortepianonun geniş imkanlarından istifadə edir.

A.Qəmbərli əsərin əvvəlində "*with maximum possible accuracy*" qeydini aparır. Hər xanədə dəyişən mürəkkəb ölçülər, fortepianonun geniş səs və sim effektlərindən istifadə əsərin obraz-məzmununun açılmasına böyük təkan verir.




"Resonance" bir neçə bölümdən və bu bölümlər daxilində bir neçə kiçik hissəcikdən ibarətdir (Meno mosso, Piu mosso).Ritmik quruluş, fraza və harmonik dil baxımından hissəciklər bir-birinə çox bənzəyirlər. Hissəciklər əsər boyu təkrar olunaraq böyük frazaları meydana gətirirlər. Frazalar isə daha da genişlənib cümlələrin yaranmasına gətirib çıxarır, nəticədə isə bəstəkar əsər boyu böyük bir əks-səda yaratmağa müvəffəq olur. Ümumiləşdirmə aparsaq, bəstəkarın bir sıra fortepiano əsərlərində daxili estetikadan irəli gələrək burada o, zəngin təxəyyülünü, yaradıcı mövqeyini özünəməxsus şəkildə çatdırmağa çalışır. Bəstəkar ilə söhbət zamanı anlayırsan ki, onun öz daxili aləmi var, bu da səciyyəvi xüsusiyyətdir. O, hər müraciət etdiyi mövzuda individual görünür, heç kimə bənzəmir, heç kimi təqlid etmir, təkrarlamır. Bu yaradıcı insan üçün vacib bir faktordur. Çünki, o yaradır, o yazır. Əgər müasir zamanda yeni yazı texnikalarına minlərlə bəstəkar müraciət edirsə, onun üçün müasirlikdə əsas məqam qarşıya qoyduğu məsələni kökündən həll etmək məqsədi durur.

Bəstəkar 10 xanə alətin sim səs effektlərinin imkanlarından istifadə edir və əsərin proqramlı adı ilə bağı olaraq əks-səda mövzusunu təsdiqləyir. Maraqlıdır ki, bəstəkar burada da yəni simdən istifadə edərkən poliritmika cəhətlərini tədbiq edir.

Həm zərif, incə ifa tərzi, creshendo və diminuendo işarələri, bəstəkarın bir sıra qeydləri əsərin bağlanğıcına xüsusi diqqəti tələb edir. Daha sonra isə Meno mosso yazılan hissədən sol əl ikinci oktavanın “fis” səsinə toxunaraq (yarım not və çərək pauzalar) yenidən əks-sədanı daha “dərinləşdirir”.




İbarələrin qeyri-bərabər uzunluğu, ritmin dəyişdirilməsi V.Lütoslavskinin bəzi nümunələrini xatırladır və yenidən dəyişən metr-ritm məsələləri, dinamik işarələrin varlığı dinləyicini daha dərin musiqi qatına qərq edir. Bəstəkar bir daha Piu mosso bölməsinə qayıdır. Bas səsində “fis” səsi və yenidən əks səda doğuran texnika.... 7 xanə davam edən səs Meno mosso ilə əvəz olunur. Əsərin diqqəti cəlb edən məqamlarından biri də mürəkkəb ölçülərin istifadəsi ilə bağlıdır, bu da müasir tərzdə yazılan nümunəyə xas bir cəhət kimi vurğulana bilər. Artıq 24-cü xanədə səs palitrası dolğunlaşır və bas səsinə “fis”, yuxarı səslərdə isəklasterlərdən bəstəkar istifadə edir. 29-cu xanədən başlayaraq səslənmə daha sərt görkəm alır və bəstəkar özü bu hissəni daha  çevik ifa etməyi göstərir. Ümumiyyətlə, bəstəkar silsilə boyu qeydlər aparır, ifaçı üçün böyük imkanlar yaradır. Əsər boyu əsas ideyanın qoyuluşu ilə yanaşı, onun musiqi ifadə vasitələri ilə həlli yolu bəstəkarın “Resonance” əsərində  özünü büruzə verir.

Silsilənin 3-cü pyesi isə 2018-ci ildə yazılmış və “İlğım” bağlığı altında təqdim olunmuşdur. Əvvəla qeyd edək ki, bu əsər 2019-cu ildə Avstriyanın Vyana şəhərində Mauricio Kagel adına Beynəlxalq Müsabiqəsində səslənmiş və gənc bəstəkara böyük uğur gətirmişdir. Bəstəkarın əsəri bəstəkar I yerə layiq görülmüşdür. Müsabiqədə qalib olan A.Qəmbərlinin “İlğım” əsəri  Avstriyanın “Universal edition” adlı klassik musiqi nəşriyyatında çap edilmişdir.

Social Science Development Journal 2022 September Volume: 7 Issue: 33 pp: 34-42
Doi Number : http://dx.doi.org/10.31567/ssd.743

Bəstəkar əsər haqqında belə bir qısa icmal gətirmiş olur: ““İlğım”ın konsepsiyasını Abşeron yarımadasının (Azərbaycan) dənizkənarı Bilgəh kəndində yaşayarkən düşünmüşdüm. Bu məkanın isti yay havasını dərərkən kəndə gedən yolda parlaq rənglərdə əks olunan mənzərəsi, bulanıq bir üfüqdə peyda olan, müşahidəçinin gözünə yaxınlaşarkən yox olan, yenidən kaleydoskopik bir şəkildə peyda olan ilğım, əsərin quruluşunda və bütövlükdə atmosferinin yaradılmasında fikirləri işə salan əsas ilhamverici motivlərdən idi”.
“İlğım” əsəri bəstəkarın müəllimi Sevda Babazadəyə həsr olunub. Hələ AMK-nın nəzdində Musiqi Kollecində oxuduğu zaman o, Sevda xanımın sinifində fortepiano ixtisası üzrə təhsil almışdır. “İlğım” koloristik harmoniyalarla zəngindir. Bu silsilədə “İlğım”ın öz yeri var. Bəstəkar burada alətin səs imkanlarından lazimi səviyyədə istifadə etməyə çalışır. Parlaq və rəngli xarakter, melodik improvizə, mikrointervalların tətbiqi müşahidə edilir. İmpressionizmə yaxın olan kompozisiyadinləyicidə xoş hisslər yaradır. Yığcam nümunə daxilində bəstəkar sanki o dövrə ekskurs edir, eyni zamanda öz fərdiliyini də unutmur. Çox koloritli səslənmələr, harmoniyalar alətin sim effektələri ilə növbələşir.




Keçmişin müasirliklə toqquşması onları bir qədər uzaqgörən edir. A.Qəmbərli burada müəyyən stilizasiyadan uzaqdır, tapılan rənglərin impressionist təzadlarından və sıçrayışlarından daha sərbəst istifadə etmiş olur. Bəstəkarın əsər boyu təqdim etdiyi harmoniyalar çox ehtiyatla və incə düşünülmüş şəkildə göstərilir. Əsərin musiqisində insanın gözünə görünən, yaxın gəldikcə isə yox olan ilğım... Bunu musiqidə təsvir etməyə müvəffəq olub bəstəkar... Ona görə də əsərin emosional məzmunu çox dərin və poetikdir...
2020-ci ildə Universität für Musik und darstellende Kunst Wien "Mdw hören" proqramı çərçivəsində buraxdırdığı CD-yə Y.Haydn (J.Haydn), L.Bethoven (L.Beethoven), M.Ravel, R.Şuman (R.Schumann), A.Vebern (A.Webern) kimi dünyaca məşhur bəstəkarlarla yanaşı Ayaz Qəmbərlinin də “İlğım” əsəri daxil edilmişdir. CD Universitetin ən uğurlu səs yazılarından ibarət "audio vizit kartı" kimi buraxılmışdır və rektorun qonaqlarına hədiyyə olaraq təqdim edilmişdir.
Qısa motivin genişlənməsi, melodik istiqaməti, ritmi, registr və tembr “geyimi” xüsusi bacarıqla hər keçiddə yenilənmiş tərzdə nümayiş olunur. Xüsusilə vurğulamaq lazımdır ki, bəstəkar bütün silsilə boyu müəyyən motivləri inkişaf etdirir.
Maraqlıdır ki, bəstəkar hər hissənin obraz aləmini təzadlı musiqi materialı üzərində qurur. Bununla belə, burada maraqlı silsilə quruluşu var. “Sentyabr buludları”, “Resonance”, “İlğım” orijinal silsilədir. Hər bir əsər müəyyən hadisəni sanki təsvir edir. Dərin və subyektiv lirik xarakterli obrazlar silsilə boyu hökmranlıq edir.

Bəstəkar fortepianonun registr və tembr ifadə imkanlarından olduqca maraqla istifadə edir. Məsələn: “Resonance” adlı əsərində o, registrləri qarşı-qarşıya gətirir, müxtəlif oktavalarda eyni səsi götürərə səs paıitrasını daha dolğunlaşdırır. Əvvəlki iki pyesdən fərqli olaraq “İlğım” da akkord quluşundan daha çox istifadə etmiş olur.

**Nəticə**

Dahi Q.Qarayevin məktəbi böyük bəstəkar nəslinin yetişməsində mühüm rola malikdir. Görkəmli bəstəkarın həm öz tələbələri, həm də “nəvə-nəticələri” onun yolunu davam etdirərək öz fərdi üslublarını yaratmağa müvəffəq olublar. Q.Qarayevin özü də bir müəllim kimi tələbələrinə öz yolu ilə getməyi tövsiyyə edirdi və heç vaxt onu təqlid etməməyi bildirirdi.

A.Qəmbərli yaradıcılığa qədəm qoyduğu zamandan bu günə qədər əldə etdikləri ilə kifayətlənmir. Daim axtarışdadır, öz üzərində işləyir, yeni yazı texnikaları ilə tanış olaraq müasir musiqinin dərin qatlarına qədər məsafələri qət edə bilir. Ümumiyyətlə, A.Qəmbərlinin əsərlərində yer alan müasir ifa üsulları, ştrix və nüansların ifa metodları ilə bağlı göstərişlərə də yer ayrılır. Bu cəhət müasir əsərlər üçün xarakterikdir. Metodik göstərişlərin bəstəkar tərəfindən göstərilməsi ifaçıya əsərin daha mükəmməl şəkildə təqdim etmək üçün kömək olur və eyni zamanda gənclər yeni ifa üsullarının həyata keçirilməsi ilə bağlı xeyli biliklər əldə etmiş edirlər.

A.Qəmbərlinin istifadə etdiyi musiqi dil xüsusiyyətləri də olduqca maraqlıdır. Yaxşı məlumdur ki, XX-XXI əsrin bəstəkar yaradıcılığında musiqi dil anlayışı, bura daxil olan bütün vasitələr, dil cizgiləri, müxtəlif ənənələr və yeniliklər, bir sözlə çox geniş və birmənalıqdan uzaq olan musiqi dil arsenalı çox sərbəst istifadə olunurdu**.** Bəstəkarın qarşısında çox böyük seçim dururdu və o, istədiyindən yararlana bilir.

Təbii ki, bəstəkarın dil xüsusiyyətlərindən söz açaraq onun zamanla bağlılığı olduqca vacib məsələ kimi çıxış edir. Bunu A.Qəmbərli musiqisində lad-tonal məsələsində göstərmək istərdik ki, təhlilə cəlb olunan əsərlər atonal musiqi ilə bağlıdır. Xüsusi vurğulamaq istərdik ki, A.Qəmbərli hər əsərinin musiqi dilini onun məzmunu ilə əlaqəli olaraq müəyyənləşdirir və məhz buna görə onun yaradıcılığında “İmages” (“Obrazlar”) mürəkkəb silsilə kimi meydana gəlir.

Bunun məntiqli davamı kimi A.Qəmbərlinin musiqisində tematizm və melodik dil məsələsinə toxunmaq istərdik. Bəstəkar bu məsələdə də özünü geniş imkanlı müəllif kimi göstərir. A.Qəmbərlinin melodik dilində adətən qısa, yadda qalan, çox xarakterik, iti intonasiyalara müraciət edir.

A.Qəmbərli silsiləsinin musiqi inkişafına gəldikdə burada linear və polifonik texnikanın istifadəsinin böyük rolunu qeyd etməliyik. Bəstəkar musiqidə işlətdiyi bütün səsləri olduqca sərbəst istifadə edir. Odur ki, onun burada hətta harmonik dilinə əsaslanan son nümunəsində (“Mirage”) akkordlar yerinə səslər düzümü istifadə olunur.

Son olaraq vurğulamaq istərdik ki, A.Qəmbərli müasir dövrün sənətkarı kimi geniş yaradıcılıq potensialına malikdir və o, bu geniş yaradıcılıq imkanlarını böyük həssaslıq və ustalıqla istifadə edir. Onun yaradıcılığını ümumi Azərbaycan musiqisinin uğuru kimi qəbul etmək olar.

**ƏDƏBİYYAT**

1. Əliyeva F. Ş. Azərbaycan musiqisində üslub axtarışları. Bakı: Elm, 1996.
2. Gənc bəstəkarların növbəti plenumu. Mədəniyyət, 2017, 25 may.
3. Post Avanqard məkanında müasir musiqi XX əsr. Avropaya səyahət. Zamanla üz-üzə IV müasir musiqi layihəsi, 2016.
4. Sara Timurova “Bəstəkar Ayaz Qəmbərli yaradıcılığının bədii identifikasiyası. “Konservatoriya” jurnalı 2021 №1 (50).